# İQLİM DƏYİŞMƏSİ BAXIMINDAN, İŞĞALDAN AZAD EDİLMİŞ DAĞLIQ ƏRAZİLƏRDƏ ÜZÜMÇÜLÜYÜN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Rauf Əsədullayev**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, asadullayevrauf@gmail.com*

Üzümçülük insan fəaliyyətinin iqlim dəyişməsinə çox həssas sahələri sırasındadır. İqlim dəyişiklikliyinin üzüm və şərab istehsalına təsiri müxtəlif və mürəkkəbdir. Bir tərəfdən, üzümün daha erkən yetişməsi bazara daha tez çıxmağa imkan verir; bununla belə, yığım müddətinin iki dəfəyə qədər qısalması səbəbindən, eyni həcmdə işin daha qısa müddətdə yerinə yetirilməsi məcburiyyəti yaranır. Həmçinin tənəklər yeni iqlim şəraitinə uyğunlaşa bilsə də, temperaturun dəyişməsi, ilk növbədə, üzümün və ondan hazırlanan şərabın keyfiyyətinə təsir göstərir; bu təsirin mənfi olacağı istisna deyil ki, bu halda istehsal olunan şərab istehlakçı üçün əvvəlki qədər çəlbedici olmayacaq. İqlim dəyişikliyinə adaptasiya, təsir göstərən əsas prinsiplərin elmi cəhətdən qiymətləndirilməsini, iqlim modellərinin və bitki-ətraf mühit qarşılıqlı təsirinin dərindən öyrənilməsini tələb edir. Dünyada orta temperaturun hətta 1-2°C artması üzümçülük təsərrüfatlarında nəzərəçarpacaq qeyri-sabitliyə gətirib çıxaracaq. PRECIS modeli üzrə qurulmuş ssenariyə görə, 2021-2050-ci illərdə Azərbaycanda orta temperaturun 1,5°C-1,6°C, yağıntıların miqdarının, bölgələrdən asılı olaraq, 0-20% artacağı gözlənilir. Bir qədər daha uzaq perspektivdə - 2071-2100-cü illərdə - orta temperaturun, 1990-ci illə müqayisədə 5°C, yağıntıların miqdarının isə bölgələr üzrə 20-80% artacağı etimal olunur. Atmosfer yağıntılarının miqdarının artması nəticəsində məhsuldarlığın da yüksəlməsini gözləmək olar (2050-ci ilə qədər dəmyə üzümlüklərdə 4-5%-ə qədər). Temperaturun artması isə üzüm şirəsinin keyfiyyətinə müsbət təsir göstərəcəkdir. Bu dəyişmələr nəticəsində, üzüm giləsində şəkərliliyin 2-3%, turşuluğun isə 1% artacağı gözlənilir, bu da keyfiyyətli süfrə, kəmşirin, desert şərablarının istehsalı üçün daha əlverişli, oynaq və yüngül süfrə şərablarının istehsalı üçün isə nisbətən az əlverişli olacaq.

Hazırda üzümlüklər dəniz səviyyəsindən 800-900 m yüksəkliyədək kütləvi şəkildə salınır; bununla belə, üzümçülüyün yuxarı həddi 1100-1300 m hündürlüyündən keçir. Yüksəklik hər 100 m artdıqca, temperaturun 0,6°C azalmasını nəzərə alsaq, qarşıdan gələn dövrdə iqlimin istiləşməsi, üzümlüklərin yuxarı sərhəddini 2050-ci ilə qədər 200-450 m daha yüksəkdə yerləşən ərazilərə doğru çəkəcəyi mümkündür ki, bununla da, dəniz səviyyəsindən 1400-1700 m yuxarılarda üzümçülük üçün əlverişli şərait yaranacaqdır.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın reallaşdırılması üçün başlıca şərtlərdən biri əhali üçün dayanıqlı iş yerlərinin yaradılmasıdır. Qarabağ iqtisadi rayonu ərazisində üzümçülük ənənəvi olaraq bitkiçiliyin əsas istiqamətlərindən olduğu halda, Şərqi Zəngəzur iqtisadi rayonunun yüksək dağ rayonları olan Kəlbəcər və Laçında vəziyyət fərqli olmuşdur. Bu da adı çəkilən bölgənin təbii şəraiti ilə bağlıdır: dəniz səviyyəsinə nisbətən hündürlük – 900-1200 m; aktiv temperaturun yekunu – 3200-3300°C; illik yağıntıların miqdarı – 430-595 mm; əsas torpaqlar – dənəvər qozvari quruluşlu gilli və gillicəli, skeletli boz-şabalıdı. Bununla belə, hələ XX-ci əsrin 60-cı illərində bu rayonlarda bir sıra texniki (Mədrəsə, Pino qrupuna aid, Rislinq) və süfrə (Ağ Xəlili, Qara şanı, Kəhrəba, Jemçuq Saba, Ağ şasla) üzüm sortları əkilib becərilməkdə idi. Bu yerlər dəmyə əraziləri olsa da, innovativ suvarma sistemlərindən istifadə etməklə, yağıntıların düşdüyü aylarda torpaqda toplanmış nəmliyin qorunub saxlanması məqsədilə müvafiq aqrotexniki tədbirlərin həyata keçirilməsi, atmosfer yağıntılarının toplanması yolu ilə süni su tutarlarının yaradılması yolu ilə, gələcəkdə, ehtiyac olduğu halda, üzümlüklərin suvarılmasını asanlıqla həyata keçirmək mümkündür. Bu baxımdan, üzləşdiyimiz iqlim dəyişməsi törətdiyi fəsadlarla yanaşı, dağlıq ərazilərdə üzümçülüyün inkişafı üçün yeni imkanlar yaratmış olacaq.